

## HƏMZƏ ƏVƏZOĞLU

### *QƏZƏL*

Özüm yatmış kimiyəm, ruhum oyaqdı hələ ki,
Ürəyim gup-gup salır, hay-küy edən bircə mənəm.

Bəşər uşaq kimidir lay-laya möhtacdı hər an,
Saxlayıb hay-küyümü, lay-lay edən bircə mənəm.

Paralanıb, bölünüb hər ağacın gövdələri,
Özünü qoruyan o qollu-budaq bircə mənəm.

Baxıram yan-yörəmə hamı pərişan görünür,
Pərişan halimizə kölgə salan bircə mənəm.

İşləyən hər bir adam məsləki pullarda görür,
Ruziyə sidq ilə hörmət eləyən bircə mənəm.

Hər bir yar öz yarına, malına izzətlə baxır,
Hərəyə, hər yara izzətlə baxan bircə mənəm.

Dünyada keyf eləyən keyf mayasından deyiləm,
Qəmi-pünhan oluram, qəm eləyən bircə mənəm.

Göstərin məndən uzaq yerlərin övladını siz,
Dünyada tək deyiləm hər kəsə yar bircə mənəm.

Uca Allah özü bilir mənim istedadımı,
Ona şərik deyiləm, təzim edən bircə mənəm.

Qoy məndən inciməsin heç də əziz külli-bəşər,
Hamıya əziz-giram, aşiq olan bircə mənəm.

Şəriət qaydaların özümə qanun bilirəm,
Bir qədər boynu bükük, fəqir olan bircə mənəm.

Fəqirlikdən savayı var dəxi adətlərimiz,
Cəng edib düşməni məhv eyləyəntək bircə mənəm.
Eşqin mücəssəməsi, cənnətin rahiyyəsiyəm,
Cəhənnəm oduna da varid olan bircə mənəm.

Sanmayın cəhənnəm odunda tək özüm yanıram,
Zira oddan durulan mahir olan bircə mənəm.

Götürəndə eləcə Nəsimi babam kimiyəm,
Dərisi soyulu sərgərdan olan bircə mənəm.

Şahiyəm, mülki-məlahətdə gəzir əşarımız,
Həmzəyəm, sailəm, avarəgəzən bircə mənəm.

### *QƏZƏL-NƏZİRƏ*

Şikayət eyləmə gəl, gəl ki, gülüstanə gəlim,
Çay kimi köç eləyim, dəryaya, ümmanə gəlim.
Həndəvərində qərar eyləyim, gəzim, dolanım,
Yüksəlim göy üzünə, qalxım asimanə gəlim.

Olmasan da elədə sən mənə tərəf belə ki,
Tərəzinin gözünə bənd olarmı yüngül çəki?
Ayrıca bir-bir idiksə, cəmlənib olaqıq iki,
İki ahəngi ilə zəndimə, gümanə gəlim.

Həyatın nə mənası bir yerdə qoşa olmasaq,
Uzun bir ömür sürüb qarıyıb yaşa dolmasaq,
Gül olub, bülbül olub başları başa qoymasaq,
Həbibimsən, təbibimsən, sənə mehmanə gəlim.

Varmı sənin də mənim tək hünərin çıx qabağa,
Deyildir məhəbbətdə sürəkli alqış qadağa,
Yaxşılıqlarda bulun, bizləri öt, sıx qırağa,
Hədəfə mən də yetim, qoy axır zamanə gəlim.

Bu aləm dövr eləyir bizlərə xatircəm olur,
Yar üzün görməyəndə gödəlir ömrüm kəm olur,
Gözəl üz, nazlı baxış xəyalımda hər dəm olur,
Xəyalı neyləyirəm qapına dərmanə gəlim.

Yaş axır gözlərimdən Tanrımızın görküsudur,
Seviriksə bu cürə qarşımızda şövqü durur,
Yerləri, göyləri xəlq eyləyənin hökmü budur,
Tutaraq yarın əlindən qəbiristanə gəlim.

## *NƏ SƏN BİLDİN, NƏ MƏN BİLDİM*

Şahlıq quşu özü gəlib başımıza qonmuş idi,
Onun hardan gəldiyini nə sən bildin, nə mən bildim.

İnəyimiz sağalmaqçun vədəsini gözləyirdi,
Onun bu intizarını nə sən çəkdin, nə mən çəkdim.

Totuq-motuq sarı cücə orda-burda dolaşırdı,
Necə çıxdı yumurtadan nəsən gördün, nə mən gördüm.

İtlər hürür-ulaşırdı, ulaşıb göyə baxırdı,
Diqqət ilə bu göylərə nə sən baxdın, nə mən baxdım.

Yeməli göbələkləri gedib yığıb dərməmişik,
Artıb-yaman çoxalıblar nə sən əkdin, nə mən əkdim.

Sən bax qoca qarılara, yaxın düşmə arılara,
Arı sancdı, zəfər çaldı, nə sən çaldın, nə mən çaldım.

Şeriyyata maraq sönüb yurdum-yuvam, məskənimdə,
Yeni sözlər fikirləşib nə sən tapdın, nə mən tapdım.

Göylər ilə əlləşirik, əlləşir, həm didişirik,
Günahların çoxluğundan nə sən qorxdun, nə mən qorxdum.

Gəl irfani məclis quraq, qalxıb yerimizdən duraq,
Lakin vətən sərhədlərin nə sən aşdın, nə mən aşdım.

Bundan sonra torpaqları gərəkdir ki, qaytaraq biz,
Birinci düşmən üstünə nə sən cumdun, nə mən cumdum.

Özümüzü tənqid edib bir məxrəcə gələyin ki,
Desinlər ki, meydanlardan nə sən qaçdın, nə mən qaçdım.

Nə etsək də şairlərik - "səmanın əsgərləriyik",
Lakin Tanrı hüzurunda nə sən durdun, nə mən durdum.

Biz "göyün oğullarıyıq", sözü göyə yollayırıq,
Lakin göylər səltənətin nə sən qurdun, nə mən qurdum.

Əl çək, əl çək səltənətdən, sən get yapış bir sənətdən,
Göylərdəki "məvacib"i nə sən aldın, nə mən aldım.

Baxma ki, pul almamışıq, yerlər, göylər bizimkidir,
Bizim olmayan xəyala nə sən daldın, nə mən daldım.

Ucalacaq Haqqın səsi, inşallah bil, əmin ol ki,
Əl-qol atıb söz deməkdən nə sən qaldın, nə mən qaldım.

"Qızıl dövran" yetişibdir, birdəfəlik bilməliyik,
Bu dövranın gəlişini nə sən sezdin, nə mən sezdim.

Var arxada pis günlər də, bütöv cahan sən də, mən də,
Yetər artıq bəsdi daha nə sən bezdin, nə mən bezdim.

Səbr eləmək yaxşı şeydir, insanların çoxu keydir,
Fəqir-füqur-füqəranı nə sən atdın, nə mən atdım.

Üçüncü minillikdəyik, miladidir bu cür tarix,
Hicri-qəməri tarixin nə sən yazdın, nə mən yazdım.

Çox yollarla gedəcəyik, sağa-sola dönəcəyik,
Doğru-düzgün döngələrdə nə sən azdın, nə mən azdım.

Vaxt gələcək öləcəyik, inşallah, diriləcəyik,
Əbədi bu ömrümüzü nə sən verdin, nə mən verdim.

Qüssələri atmalıyıq, yaxşı həyat qurmalıyıq,
Yardan, sevgi-məhəbbətdən nə sən doydun, nə mən doydum.

Axır sözüm budur deyim - halal çörək halal yeyim,
Yox olmarıq biz heç zaman - nə sən itdin, nə mən itdim.